

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 13 sentyabr 2023-cü il №69 (2781) https://mod.gov.az Qiymәti 30 qәpik


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

Sentyabrın 10-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon danışığı əsnasında dövlət başçıları regional məsələləri, həmçinin Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşdırılması və Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti müzakirə ediblər.

Dövlət başçıları Azərbaycan ilə Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparıblar.

## Rəcəb Tayyib Ərdoğan: İndi Qarabağda atılan addımlar doğru addımlar deyil

Sabah böyük ehtimalla Paşinyanla danışığım olacaq. Bizim regionu (Qarabağı) sakitliyə dəvət etməkdən başqa çarəmiz yoxdur.

AZƏRTAC xəbər verir ki, bu sözləri "Böyük İyirmiliy"in sammiti çərçivəsində mətbuata açıqlamasında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

İndi Qarabağda atılan addımların doğru addımlar olmadığını vurğulayan Prezident Ərdoğan qeyd edib ki, bunu qəbul etmək mümkün deyil. Əslində, Avropa İttifaqına üzv ölkələr də bunu qəbul etmir.

## Türkiyə XİN: Qarabağda qondarma rejimin keçirdiyi “prezident seçkilərini” tanımırıq

Türkiyə Azərbaycanın Qarabağ bölgəsində qondarma rejimin keçirdiyi "prezident seçkilərini" tanımır.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Xarici İşlər Nazirliyinin bəyanatında bildirilib.

"Türkiyə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün pozulmasını ifadə edən bu qanunsuz seçkiləri tanımır. BMT-ni və beynəlxalq ictimaiyyəti bu seçkiləri tanımamağa çağırırıq", - deyə bəyanatda vurğulanıb.

Qeyd olunub ki, qondarma "seçkilər" beynəlxalq hüququn, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT-in prinsiplərinin pozulmasıdır.

Türkiyə XİN Azərbaycan və Ermənistanın sülh danışıqlarını davam etdirməyə çalışdığı bir vaxtda keçirilən bu "seçkiləri" pisləyib və onu danışıqları sarsıtmağa yönəlmiş addım kimi qiymətləndirib.

"Türkiyə Azərbaycan və Ermənistan arasında sülh danışıqları prosesini dəstəkləyir və yaxın gələcəkdə uzunmüddətli sülh sazişinin imzalanmasının regionda sülh və sabitliyə mühüm töhfə verəcəyinə inamını qorumaqdadır", - deyə Türkiyə XİN-dən bildiriblər.

*Təlim*

# Bu gün təlimdə qazanılan uğur sabahkı qələbəyə zəmin yaradır



***Hərbi hissənin ərazisinə daxil olmaq üçün nəzarət-buraxılış məntəqəsinə yaxınlaşdıq. Burada dayanan əsgərlərin üz-gözündən məğrurluq, igidlik yağırdı. Hiss olunurdu ki, onların ürəyi Vətənə sevgi ilə döyünür. Təbiidir ki, ürəyi vətənpərvərlik duyğuları ilə dolub-daşan bu əsgərlər döyüşlərdə hünər göstərəcək, üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gələcək, düşmən hədəflərini sərrast atəşlə məhv edərək zəfər qazanacaqlar.***

İlk olaraq mayor Anar Baxşəliyevlə görüşüb söhbət etdik. 44 günlük Vətən müharibəsinin od-alovundan cəsarətlə keçmiş zabit dedi ki, hərbi hissəmizin şəxsi heyəti döyüşlərdə böyük igidlik göstərdi. Qələbənin qazanılmasında biz istehkamçıların da böyük əməyi oldu. Bu gün hərbi hissəmizin hərbi qulluqçuları müxtəlif bölgələrdə torpaqlarımızı erməni qəsbkarlarının basdırdıqları minalardan və partlamamış silah-sursatlardan təmizləyirlər. Onlar üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Bütün bunlarla yanaşı, şəxsi heyət müntəzəm olaraq keçirilən təlim-məşqlərdə daim döyüş hazırlıqlarını da artırır. Hazırda hərbi qulluqçularımız təlim mərkəzində məşğələ keçir, böyük həvəslə yeni bilik və vərdişlərə yiyələnirlər.

Hərbi qulluqçuların çöl məşğələsini izləmək üçün təlim mərkəzinə getdik. Məşğələnin hər dəqiqəsindən səmərəli istifadə edən istehkamçılar mövzuya uyğun olaraq dərs keçirdilər.

Döyüşlər zamanı istehkamçıların üzərinə məsuliyyətli vəzifələr düşür. Onlar döyüşən qüvvələrin irəliləməsi üçün düşmənin minaladığı yolları, keçidləri açırlar. Şəxsi heyət isə bu yollardan, cığırlardan keçərək işğalçıların üzərinə hücuma keçir, düşməni məhv edir, qələbə qazanırlar. Deməli, zəfərin qazanılmasında istehkamçıların çox böyük rolu var. İstehkamçılar haqqında məşhur bir deyim var: "İstehkamçılar yalnız bir dəfə səhv edirlər". Barələrində deyilən bu sözlər onları qorxutmur. Çünki onlar ixtisaslarını sevirlər, daim öz üzərlərində çalışırlar. Onlar təcrübə və peşəkarlıqlarını həm nəzəri, həm də praktiki məşğələlər zamanı qazanırlar. Dərslərin daha da səmərəli keçirilməsi üçün komandanlıq həm tədris otaqlarında, həm də səhra şəraitində geniş imkanlar yaradıb. Elə bu imkan və şəraitin nəticəsidir ki, şəxsi heyətin döyüş hazırlığı daim yüksək səviyyədədir. Bu hərbi hissənin şəxsi heyəti bacarıqlı və peşəkar olduqlarını 44 günlük Vətən müharibəsində bir daha göstərdilər. Onlar İkinci Qarabağ müharibəsində torpaqlarımızın azadlığı naminə qarşılarında dayanan vəzifələrin öhdəsindən bacarıqla gəldilər. Ordu hissələrinin düşmən üzərinə hücuma keçmələri üçün təhlükəsiz keçid və cığırlar açdılar. Müharibədə göstərdikləri hünər və rəşadətə görə hərbi hissənin şəxsi heyəti müxtəlif orden və medallara layiq görülüb.

**(Ardı 7-ci səhifədə)**

## Hərbi pilotların peşəkarlığı artırılır

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi 2023-cü ilin hazırlıq planına əsasən, Azərbaycan Hərbi Hava Qüvvələrinin aviasiya vasitələri təlim-məşq uçuşlarını icra ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, havaya qalxma və yerə enmə, kiçik və orta hündürlüklərdə çətin pilotaj manevrləri, şərti düşmənə məxsus yerüstü hədəflərin koordinatlarının təyin edilməsi, hava kəşfiyyatının aparılması, eləcə də plana uyğun olaraq digər fəaliyyətlər yüksək peşəkarlıqla icra olunub.

Qeyd edək ki, hərbi pilotların döyüş vərdişlərinin təkmilləşdirilməsi və peşəkarlığının artırılması məqsədi ilə keçirilən təlimlər davam edir.



# Azərbaycanın müdafiə naziri İran Silahlı Qüvvələrinin nümayəndələrini qəbul edib





*Sentyabrın 9-da Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan-İran Birgə Komissiyasının görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan general-mayor Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran İslam Respublikasının Silahlı Qüvvələrinin nümayəndə heyətini qəbul edib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, əvvəlcə iranlı qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə həyata keçirilən bərpa-quruculuq işlərindən, eləcə də Azərbaycan-Ermənistan şərti sərhədi və Qarabağ iqtisadi rayonundakı əməliyyat şəraitindən danışıb.



Müdafiə naziri son zamanlar Ermənistan silahlı qüvvələrinin bölmələri və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin törətdiyi təxribatların sayının artdığını və bu təxribatların qarşısının Azərbaycan Ordusunun bölmələri tərəfindən dərhal və qətiyyətlə alındığını xüsusi vurğulayıb.

Qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-mayor M.Əhədi İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-leytenant Məhəmməd Hüseyn Baqerinin salamlarını çatdırıb. Azərbaycan-İran əlaqələrinin qədim tarixi köklərə söykəndiyini və mehriban qonşuluq əlaqələrinin genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin vacibliyini qeyd edib.

Azərbaycanın azad etdiyi ərazilərində həyata keçirdiyi bərpa-quruculuq işlərindən məmnunluğunu bildirən İran nümayəndə heyəti Ermənistanın bölgədə sabitliyə və təhlükəsizliyə təhdid yarada biləcək fəaliyyətlərindən narahatlığını ifadə edib.

Görüşdə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri, regional təhlükəsizlik məsələləri, eləcə də maraq doğuran digər mövzular ətrafında fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan-İran Birgə Komissiyasının üzvlərinə fəaliyyətlərində uğurlar arzulayan general-polkovnik Zakir Həsənov belə görüşlərin ikitərəfli hərbi əməkdaşlığımıza müsbət töhfələr verəcəyindən ümidvar olduğunu bildirib və onun da salamlarını İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargah rəisinə çatdırmağı xahiş edib.

# Müdafiə naziri Rusiya sülhməramlılarının yeni komandanını qəbul edib



Sentyabrın 12-də Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı Oleq Salyukov Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlı kontingentinin yeni komandanı general-mayor Kirill Kulakovu müdafiə naziri general-polkovnik Zakir Həsənova təqdim edib.

Müdafiə naziri qonaqları salamlayaraq, Azərbaycan ilə Rusiya arasında əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı etimada əsaslandığını qeyd edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Qarabağ iqtisadi rayonunda əməliyyat şəraiti barədə danışan general-polkovnik Zakir Həsənov son zamanlarda qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən törədilən təxribatların sayının artdığını xüsusi vurğulayıb.

Öz növbəsində Rusiya Federasiyası Quru Qoşunlarının komandanı ordu generalı O.Salyukov səmimi qəbula görə təşəkkürünü bildirib, ikitərəfli əlaqələrimizin tarixi köklərə əsaslandığını, ölkələrimizin strateji tərəfdaş olduğunu qeyd edib.

## “Azərbaycan Qarabağ ermənilərinin inteqrasiyası prosesinin “yumşaq” keçməsində maraqlıdır”

Azərbaycan rəhbərliyi Qarabağda etnik təmizləmə aparmaqda maraqlı deyil. Üstəlik, Azərbaycan Qarabağ ermənilərinin inteqrasiyası prosesinin "yumşaq" keçməsində maraqlıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin Vladivostokda keçirilən Şərq İqtisadi Forumunun plenar iclasında bildirib.

RF Prezidenti əlavə edib ki, Ermənistan rəhbərliyi Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyıb. "İndi Prezident Əliyev mənə deyir: "Siz axı bilirsiniz ki, Ermənistan Qarabağın bizim olmasını tanıyıb". Qarabağın statusu haqqında məsələ daha yoxdur, problem həll olunub, erməni rəhbərliyi bunu açıq bəyan edib və 1991-ci ildə Azərbaycan SSR çərçivəsində olan bütün əraziləri tanıyıb". Rusiya lideri qeyd edib ki, Azərbaycan bütün məsələlərin ikitərəfli formatda həllinin tərəfdarıdır.

## İran XİN-in rəsmisi: Qarabağ Azərbaycanın bir hissəsidir

Qarabağ Azərbaycanın bir hissəsidir, bu regionun əhalisinin hüquq və təhlükəsizliyi konkret çərçivədə təmin edilməlidir və bu, bizim rəsmi mövqeyimizdir.

AZƏRTAC xəbər verir ki, bu sözləri İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nəsir Kənani Tehranda keçirdiyi həftəlik mətbuat konfransında deyib.

O bildirib ki, rəsmi Tehran Cənubi Qafqazda baş verən prosesləri diqqətlə izləyir və dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığına tərəfdardır. Qarabağ Azərbaycanın tərkib hissəsidir və Azərbaycanın ərazi bütövlüyü tanınmalıdır.

N.Kənani Azərbaycanın Qarabağ bölgəsində keçirilən qondarma "prezident seçkiləri"nə münasibət bildirərkən vurğulayıb ki, vəziyyəti gərginləşdirə biləcək addımlardan çəkinmək lazımdır. İran vəziyyətin gərginləşməsi istiqamətində atılan addımların əleyhinədir.

XİN-in sözçüsü, həmçinin vurğulayıb ki, İran Şimal qonşusu ilə sərhədlərinin təhlükəsizliyinə əmindir.

# Azərbaycan Ordusunun Baş Qərargah rəisinin Türkiyəyə rəsmi səfəri



Sentyabrın 11-də Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin Türkiyə Respublikasına rəsmi səfəri başlayıb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürakın dəvətilə qardaş ölkədə rəsmi səfərdə olan müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib.

Azərbaycan nümayəndə heyəti məzar önünə əklil qoyaraq xatirəsini ehtiramla yad edib.

Baş Qərargah rəisi xatirə kitabına ürək sözlərini yazıb.



Sonra general-polkovnik Kərim Vəliyev türkiyəli həmkarı ilə görüşüb.

Əvvəlcə təntənəli qarşılama mərasimi olub, hər iki ölkənin Baş Qərargah rəisləri fəxri qarovulun önündən keçib, Dövlət Himnləri səsləndirilib.

Protokola uyğun olaraq şərəf kitabı imzalanıb.

Rəsmi qarşılanma mərasimindən sonra Baş Qərargah rəislərinin təkbətək və nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Türkiyənin Baş Qərargah rəisi qonaqları salamlayaraq ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Ordu generalı M.Gürak iki qardaş ölkə arasında əməkdaşlığın daha da genişləndirilməsi baxımından qarşılıqlı səfərlərin və bu cür görüşlərin vacibliyini xüsusi vurğulayıb.

General-polkovnik Kərim Vəliyev türkiyəli həmkarına dəvətə və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Baş Qərargah rəisi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, ordumuzun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən danışıb.

Ölkələrimiz arasında uğurla inkişaf edən əməkdaşlığın qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığı xüsusi vurğulanıb.

Görüşdə Azərbaycan ilə Türkiyə arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonda Azərbaycan nümayəndə heyətinə Türkiyə Silahlı Qüvvələrinin fəaliyyəti barədə brifinq təqdim olunub.






* * *

Türkiyə Respublikasında rəsmi səfərdə olan Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Ankara şəhərində Heydər Əliyev Parkını ziyarət edib.

Azərbaycan nümayəndə heyəti burada Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə əklil qoyub, dahi şəxsiyyətin xatirəsinə dərin ehtiramını bildirib.

Sonra Baş Qərargah rəisi Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülər ilə görüşüb.

Türkiyənin milli müdafiə naziri nümayəndə heyətini salamlayaraq ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib.

Səmimi qəbula görə təşəkkürünü bildirən general-polkovnik K.Vəliyev hər iki qardaş ölkənin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyini vurğulayıb.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun da iştirak etdiyi görüşdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, həmçinin regional təhlükəsizlik məsələləri də müzakirə edilib.



## Azərbaycan Ordusunun mövqeləri atəşə tutulub

Sentyabrın 11-i saat 22:00-dan 22:10-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Çəmbərək rayonunun Cil və İmirli yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Gədəbəy rayonunun Əyrivəng, Göyəli və Qaravəllər yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan bir neçə dəfə atəşə tutub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətlərdə cavab tədbirləri görülüb.

* * *

Sentyabrın 12-si saat 09:45-dən 10:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Birəli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Sədərək yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan bir neçə dəfə atəşə tutub.

Bölmələrimiz tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

* * *

Sentyabrın 12-si saat 11:25 radələrində Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin üzbəüz istiqamətdə yerləşən bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb.

## Azad edilmiş ərazilərdə döyüş növbətçiliyi və hərtərəfli təminat yüksək səviyyədədir

Azərbaycan Ordusunun bölmələrinin hərtərəfli təminatı və qoşun xidmətinin təşkili, eləcə də şəxsi heyətin sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən zəruri tədbirlər davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, azad edilmiş ərazilərdə yerləşən bölmələrdə günün nizam qaydalarına uyğun olaraq qoşun xidməti və sutkaboyu döyüş növbətçiliyi təşkil olunur, fasiləsiz xidmət aparılır.



Döyüş növbətçiliyinə cəlb edilən şəxsi heyətə təhlükəsizlik qaydaları çatdırılır, onların döyüş və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə saxlanılması üçün mütəmadi olaraq məşğələlər keçirilir. Asudə vaxtlarda hərbi qulluqçularımıza ölkəmizdə və dünyada baş verən ictimai-siyasi vəziyyət haqqında məlumat verilir.

Eyni zamanda, şəxsi heyət mövsümə uyğun geyimlə, təzə və yüksək kalorili isti qida ilə fasiləsiz təmin olunur.

Peşəkar hərbi qulluqçularımız hər an ehtimal olunan istənilən təxribatın qarşısını almağa hazır və qadirdirlər.

# Səlahiyyətli nümayəndə təmas xəttindəki vəziyyətlə maraqlanıb

*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli sentyabrın 9-da Əlahiddə Ümumqoşun Ordu Qərargahına gələrək, Ermənistan Silahlı Qüvvələri ilə təmas xəttində yaranmış gərginliklə bağlı qarşı tərəfin təxribat xarakterli fəaliyyətləri nəticəsində atəşkəs rejiminin pozulması halları və görülmüş tədbirlərlə maraqlanıb.*



AZƏRTAC-a bildirilib ki, həmin gün Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli ordu qərargahında Əlahiddə Ümumqoşun Orduda ziyarətdə olan Türkiyənin ASELSAN şirkətinin genel müdiri Ahmet Akyolu ilə görüşüb.

Görüş zamanı birgə fəaliyyət və mövcud layihələr haqqında məlumat verilib, gələcəkdə əməkdaşlığın inkişafı və daha da genişləndirilməsi məqsədilə fikir mübadiləsi aparılıb.

# Azərbaycan ilə İran arasında hərbi sahədə əməkdaşlıq məsələləri müzakirə olunub





*Sentyabrın 9-da Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Baş direktor cənab Aqil Qurbanov ölkəmizdə səfərdə olan general-mayor Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran İslam Respublikasının Silahlı Qüvvələrinin nümayəndə heyəti ilə görüşüb.*



Müdafiə nazirinin müavini iranlı qonaqları salamlayaraq dövlətlərimizin bir çox istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu vurğulayıb. Baş direktor Birgə Komissiyanın ölkəmizdə keçirilən işçi görüşünün ikitərəfli hərbi əməkdaşlığa müsbət töhfələr verəcəyindən əminliyini ifadə edib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, sonra Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargahı arasında hərbi sahədə əməkdaşlığa dair "Birgə Komissiya"nın 3-cü iclası keçirilib.

İclasda Azərbaycan ilə İran arasında hərbi sahədə əməkdaşlığın genişləndirilməsi, hər iki ölkənin hərbi nümayəndələrinin qarşılıqlı səfərlərinin təşkili və digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Bakıda keçirilən Azərbaycan-İran Birgə Komissiyasının işçi görüşü başa çatıb

*Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və İran İslam Respublikasının Silahlı Qüvvələrinin Baş Qərargahı arasında hərbi sahədə əməkdaşlığa dair "Birgə Komissiya"nın ölkəmizdə keçirilən 3-cü iclası başa çatıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində keçirilən iclasda aparılan danışıqların nəticələri müzakirə edilib və hərbi sahədə əməkdaşlığın bir neçə istiqamətində münasibətlərin genişləndirilməsi ilə bağlı bir daha fikir mübadiləsi aparılıb.

İclasın yekun çıxışında son günlər bəzi qüvvələrin əsassız və yalan məlumat yaymaqla ölkələrimiz arasında mövcud olan dostluq və mehriban qonşuluq münasibətlərinə xələl gətirməyə cəhd göstərdiyini diqqətə çatdıran İran İslam Respublikasının Silahlı Qüvvələrinin nümayəndə heyətinin rəhbəri general-mayor Məhəmməd Əhədi bu baxımdan qarşılıqlı səfərlərin və işçi səviyyəsində keçirilən görüşlərin əhəmiyyətini vurğulayıb.



Birgə Komissiyanın iclasında icra edilən tədbirlər yüksək qiymətləndirilib, ölkələrimiz arasında ikitərəfli, regional və beynəlxalq səviyyədə əməkdaşlığın inkişafı üçün yaxşı zəmin olduğu vurğulanıb.

Sonda iclasın yekun protokolu imzalanıb.

# Yeni tədris ili və hərbi tədris sistemində yeniliklər

General-leytenant Heydər Piriyev,
Milli Müdafiə Universitetinin rektoru,
milli təhlükəsizlik və hərbi elmlər üzrə
fəlsəfə doktoru, professor



Ordu quruculuğunu şərtləndirən mühüm amillərdən biri də ordunun peşəkar hərbçi kadrlarla komplektləşdirilməsidir. Bu baxımdan hərbi təhsil həmişə dövlət üçün prioritet olub. Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra hərbi təhsil də müstəqil dövlətin mənafeləri əsasında qurulmağa başladı. Bu zərurət əsasında hərbi təhsil fəaliyyətini yeni proqramlar əsasında davam etdirməyə, tədris prosesi ordu quruculuğunu daha geniş müstəvidə inkişaf etdirməyə, hərbçi kadrlar hazırlığını daha da təkmilləşdirməyə, tədris-təlim materiallarını zənginləşdirən, yeni fənlərlə yeni mövzuları da əhatələyən proqramlarla aparılmağa başladı. Azərbaycan dili, Azərbaycan ədəbiyyatı Azərbaycan tarixi fənlərinin təkmil tədris proqramları ilə tədrisi təmin edildi. Belə tədris yenilikləri digər fənləri də, bu sıradan hərbi fənləri də əhatələdi. Terminologiya Azərbaycan dilinə uyğunlaşdırıldı, tədris yeni tələblər əsasında aparılmağa başladı. Hərbi Andın mətni tərtib edildi, təkmilləşdirildi. Müdavimlər də, kursantlar da hərbi xidmətə təhsil prosesinin tərkib hissəsi olan bu andla başlayırlar. Yəni, hərbi təhsil prosesi üçün daha bir etibarlı stimul var - and, Hərbi And.

Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazandı. Zəfərdən sonra Azərbaycanda ordu quruculuğu istiqamətində müəyyən islahatlar aparıldı. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ordunun Türkiyə Ordusu modeli əsasında formalaşdırılmasının məqsədəuyğunluğu haqqında qərar qəbul etdi - 2022-ci il martın 5-də Milli Müdafiə Universitetinin yaradılması haqqında Fərman imzaladı. Tədrisdə müəyyən yenilikləri əhatələyəcək bu yeni struktur Azərbaycanda hərbi təhsil sistemini koordinasiya edir. Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutu və Hərbi İdarəetmə İnstitutu fəaliyyətə başladı. Yeni yaradılan bu tədris müəssisələrinin fəaliyyəti, vəzifələri Elm və Təhsil Nazirliyinin müvafiq rəhbər sənədləri və Milli Müdafiə Universitetinin Elmi Şurasının birgə qərarı ilə müəyyənləşdirilib.

Elmi Tədqiqatlar indi daha sistemli şəkildə, Azərbaycan Elmi-Tədqiqat İnstitutunun müvafiq tədqiqat institutları ilə koordinasiya formatında aparılır.

Milli Müdafiə Universiteti milli-mənəvi və bəşəri dəyərlərin qorunması, onların dialektik vəhdətini təmin etməklə dünyəvi təhsil sisteminin yaradılması, inkişaf etdirilməsi, təhsilin mövcud standartlara, normalara, hərbi tələblərə, şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarına uyğunluğu istiqamətində fəaliyyət göstərməkdədir. Hərbi təhsilin və hərbi-elmi yaradıcılığın kəsilməz inkişafı, faydalı və son nəticəyə nail olunması baxımından dünyəvi təhsil sisteminin ən müasir metodları ilə təşkil olunur. Hərbi təhsil sistemi də fasiləsizliyə, vəhdətliyə, daimiliyə dolğunluğu ilə cavab verir. Hərbi təhsildə mövcud təhsil standartları, tədris proqramları və planları əsasında təhsilin bir neçə səviyyədə aparılması imkanı, təhsilin ayrı-ayrı pillələri arasında sıx dialektik qarşılıqlı əlaqə də mövcuddur.

Milli Müdafiə Universitetinin yaradılması Azərbaycanda hərbi təhsil sisteminin komplektləşdirilməsinin, təhsilin mərhələləri arasında dialektik koordinasiya yaradılmasının, nəticə etibarilə ordu quruculuğu prosesinin dönməzliyinin möhkəmləndirilməsinin yeni, mütərəqqi, dünyəvi təzahürüdür.

Ordumuzu zabit kadrları ilə Heydər Əliyev adına Hərbi İnstitut komplektləşdirir, kursantlar bu təhsil müəssisəsində bakalavr səviyyəsində təhsil alır, "leytenant" rütbəsi ilə qoşunlarda hərbi xidmətə göndərilir. Zabit kadrları həm də Təlim və Tədris Mərkəzində hazırlanır. Bu tədris ilindən etibarən belə hazırlıq üzrə gərəkli islahatlar həyata keçirilib, gələcəkdə daha da təkmilləşdiriləcəkdir ki, bu da ehtiyat zabit kadrları hazırlığı prosesinin səmərəliyini xeyli dərəcədə artıracaq, nəticə etibarilə qoşunlara daha geniş hərbi biliklərlə təkmil, təcrübi vərdişlərə malik olan "leytenant" rütbəli zabitlər göndəriləcəkdir.

Nəzərdə tutulan zəruri tədris materiallarının hansı müddətdə aşılanması pedaqoji proses üçün vacib amillərdəndir. İkinci Qarabağ müharibəsində zəfər qazanmış ordumuzun əsgərlərinin hərbi bilikləri daha zəngin olmalıdır, bunun üçün daha savadlı, daha geniş hərbi biliklərə malik zabitlər hazırlanmalıdır. Milli Müdafiə Universiteti həm də bu missiyanı yerinə yetirir...

Müdafiə Nazirliyində xüsusi təyinatlı təhsil sisteminin inkişaf etdirilməsi, Türkiyə Respublikasının, digər qabaqcıl ölkələrin hərbi təhsil sisteminə uyğunlaşdırılması məqsədilə görülmüş işlərin məntiqi nəticələrindən biri kimi Azərbaycan Ordusunun (xüsusən də əməliyyat və komando birləşmələrinin) orta ixtisas təhsilli kadrlarla (gizir və miçman) komplektləşmə keyfiyyətinin yüksəldilməsi üçün orta ixtisas üzrə (gizir və miçman) ilk dəfə qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilmişdir. Təhsil müddəti iki ildir. Orta ixtisas təhsilini başa vurmuş hərbi qulluqçulara müvafiq təhsil pilləsi ilə yanaşı, gizir hərbi rütbəsi də veriləcək.

Milli Müdafiə Universitetinin tabeliyində orta ixtisas təhsilli hərbi kadrlar da hazırlanır. Tədrisin, əsasən, poliqon bazasında olması nəzərdə tutulub. Poliqonda mövcud olan tədris binaları, yataqxanalar və digər yardımçı tikililərin təmiri, müasir maddi-texniki bazanın gücləndirilməsi, formalaşdırılması başa çatdırılmaqdadır. Bununla da Azərbaycan Ordusu üçün orta ixtisas təhsilli subbakalavr peşə-ixtisas dərəcəli mütəxəssislər, əlavə təhsil üzrə kadrlar hazırlanacaqdır. Silahlanmaya yeni daxil edilmiş müasir silah və silah sistemlərinin peşəkar istismarı məqsədilə subbakalavr peşə-ixtisas dərəcəli mütəxəssislər hazırlamaq kimi mühüm vəzifə də yerinə yetiriləcəkdir. Bu məqsədlə qarşıya aşağıdakı vəzifələr qoyulub: orta ixtisas təhsili sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək, tədris planlarının, fənn proqramlarının hazırlanmasını təmin etmək, təlim-tərbiyə prosesində innovativ texnologiyalardan və yeni təlim üsullarından istifadə etmək, orta ixtisas təhsili və əlavə təhsil üzrə təhsil proqramlarını həyata keçirmək, profilinə uyğun olaraq, nəzəri-metodoloji və pedaqoji-metodiki sənədləri hazırlamaq, təhsil proqramlarına (kurikulumlara) uyğun digər tədris-metodiki sənədləri hazırlamaq, qabaqcıl beynəlxalq təcrübəni nəzərə almaq, fəaliyyət istiqamətləri üzrə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək, daimi heyətin əlavə təhsili və peşəkarlığının yüksəldilməsi üçün tədbirlər görmək, orta ixtisas üzrə maddi-texniki və tədris bazasının möhkəmləndirilməsi, genişləndirilməsi istiqamətində işlər görmək, təlim-tərbiyə prosesini yüksək səviyyədə təşkil etmək, onun monitorinqini keçirmək, dəyişən heyətin intellektual, mədəni və mənəvi inkişafını təmin etmək, peşəkarlıq xüsusiyyətlərinin formalaşdırılmasına nəzarət etmək, müasir informasiya texnologiyalarından istifadə olunmaqla təlimlərin təşkilini və keçirilməsini təmin etmək, xarici dövlətlərin təhsil müəssisələri ilə bağlanmış ikitərəfli və çoxtərəfli müqavilələrə uyğun olaraq, daimi və dəyişən heyətinin mübadiləsini həyata keçirmək, şəxsi heyət üçün sağlamlıq, iaşə və məişət xidmətlərini təşkil etmək.

Müasir tədris ədəbiyyatlarının əsasən ingilis dilində olması, onların bilavasitə mənbədən öyrənilməsi olduqca əhəmiyyətlidir. Azərbaycan dünyəvi dövlətdir, onun vətəndaşlarının, bu sıradan ordunun şəxsi heyətinin də ingilis dilini akademik səviyyədə öyrənməsini şərtləndirir. Hərbi təhsilin müasir tələblərə uyğunluğunun və dünya hərbi təhsil sisteminə inteqrasiyasının təmin olunması məqsədilə Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutuna qəbul olunmuş kursantlar üçün zəruri fənlər, əsasən, ingilis dili üzrə əlavə bir illik hazırlıq kursunun təşkili və keçirilməsi də planlaşdırılıb. Bu, gələcək zabit korpusunun inkişafına müsbət təsir göstərməklə yanaşı, təhsilin davamında da nəzərəçarpacaq dərəcədə əhəmiyyətli olacaqdır.

Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Hərbi Liseyin fənn proqramları Elm və Təhsil Nazirliyi ilə razılaşdırılaraq yenidən işlənildi, müasir tələblərə cavab verən fənn proqramları hazırlandı. Hərbi liseylərin maddi-texniki bazasının gücləndirilməsi, tədrisin keyfiyyətinin yüksəldilməsi Milli Müdafiə Universitetinin daim diqqət mərkəzindədir.

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə 2023-cü il aprelin 5-də mətbuatda çıxışında "Hərbi liseylərin nəticələri ölkənin orta göstəricilərindən də yüksəkdir" fikri çəkilən zəhmətə verilən dəyərdir. Bu nəticə bizi qürurlandırdı - "Heydər Əliyev İli"ndə qazanılan uğur ordu quruculuğuna xidmətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycanda ordu quruculuğunun Türkiyə modeli üzərində aparılması mühüm bir vəzifədir. Türkiyə ordusu indi dünyanın ən güclü orduları sırasındadır və belə bir səviyyənin əldə edilməsində Türkiyənin daxili potensialı ilə bərabər, dünyanın qabaqcıl təcrübəsinin öyrənilməsi və tətbiqi də böyük əhəmiyyət kəsb edib. Türkiyənin zəngin təcrübəsi indi Azərbaycanda da öyrənilir və tətbiq edilir. Azərbaycanın xüsusi təyinatlı təhsil müəssisələri də bu prosesdən kənarda qalmayıb. Türkiyənin hərbi təhsil sahəsindəki təcrübəsi nəzərə alınmaqla, Azərbaycanda hərbi təhsilin yeni standartlar və tələblər əsasında qurulması üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Fərmanı ilə Milli Müdafiə Universitetinin tərkibində birləşib. Milli Müdafiə Universitetinin yaradılması, sadəcə bir struktur dəyişikliyi deyildir. Bu strukturun yaradılması ilə xüsusi təyinatlı təhsil müəssisələrində, o cümlədən hərbi liseylərdə müasir dünya standartlarına uyğun, həm də hərbi təhsil sahəsində Azərbaycanın özünün qazandığı ən yaxşı təcrübə əsasında yeni tədris prosesi qurulub. Bu yenilik tədris prosesinin gedişində və nəticələrində özünü göstərməkdədir. Dövlət İmtahan Mərkəzinin məlumatına görə, 2023-cü ildə respublika üzrə XI sinif şagirdlərinin buraxılış imtahanlarında həm Cəmşid Naxçıvanski adına Hərbi Liseyin, həm də Naxçıvanda yerləşən Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının göstəriciləri respublika üzrə orta göstəricidən daha yüksəkdir.

Ümumtəhsil məktəblərinin şagirdlərinin böyük bir hissəsi məktəbdənkənar özəl hazırlıqlarda da iştirak edirlər. Hərbi liseylərdə isə kursantlar günün nizam qaydalarına uyğun olaraq yalnız lisey daxilində tədrislə məşğul olurlar. Bununla belə, onlar respublika üzrə yüksək təhsil nəticələri göstərməyə müvəffəq olublar. Şübhə yoxdur ki, kursantlar savadlı və bilikli zabitlər kimi Azərbaycan Ordusunda öz layiqli yerlərini tutacaqlar və sədaqətli xidmətləri ilə Heydər Əliyevin əsasını qoyduğu məktəbin şərəfli tarixini daha da zənginləşdirəcəklər.

Kursantların respublika miqyaslı fənn olimpiadalarında iştirakının miqyası da genişləndiriləcəkdir. Seçimlərlə konkret fənlər üzrə daha istedadlı müdavimlər, kursantlar müəyyənləşdiriləcək, onlarla əlavə məşğələlər keçiriləcəkdir. Milli Müdafiə Universitetinin bu istiqamətdə kursantların ali məqsədi beynəlxalq miqyaslı olimpiadalarda iştirakını təmin etməkdir.

Ordunun peşəkar hərbçi kadrları ilə komplektləşdirilməsini də Milli Müdafiə Universiteti tənzimləyir. Ənənəvi təhsil sistemində pedaqoji və elmi yenilikləri əhatələyən təcrübələrin tədris prosesinə inteqrasiyasını məqsədyönlü, sistemli tətbiqini stimullaşdırmaq baxımından Milli Müdafiə Universiteti cari tədris ilini müəyyən qədər yeniləşmiş proqramları ilə, yeni metodiki yanaşmalarla başlayacaq ki, bu da bilavasitə ordu quruculuğu prosesi üçündür.

İkinci Qarabağ müharibəsi, döyüşlər, qazanılan tarixi zəfər hərbi təhsil sistemində də elmi, elmi-pedaqoji yeniliklərlə bir sırada təcrübənin, bu baxımdan döyüş təcrübəsinin tədris prosesinə tətbiqini zəruriləşdirdi. Milli Müdafiə Universitetində müharibə, döyüşlər elmi baxımdan təhlil edildi, ümumiləşdirmələr dərs vəsaiti kimi nəşr edildi. İndi kursantlar - gələcəyin zabitləri yeni texnologiyalar əsasında hazırlanmış döyüş maşınlarının və uçuş aparatlarının istismar xüsusiyyətlərini həvəslə öyrənirlər. Zəfərdən sonra yaradılan Milli Müdafiə Universiteti Zəfəri təmin edən döyüşlərin, döyüş texnikalarının da hərbi təhsilə cəlb olunmasının təşkilatçısı oldu...

# Hərbi təhsil müəssisələrində andiçmə mərasimləri keçirilib





*Sentyabrın 10-da Milli Müdafiə Universitetinin Heydər Əliyev adına Hərbi İnstitutuna və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Fakültəsinə yeni qəbul olan kursantların təntənəli andiçmə mərasimi keçirilib.*

Mərasimlərdə Milli Müdafiə Universitetinin, Hərbi institutun, Hərbi Tibb Fakültəsinin rəhbərliyi və şəxsi heyəti, Müdafiə Nazirliyinin, ictimaiyyət və kütləvi informasiya vasitələrinin nümayəndələri, hərbi qulluqçular, müəllimlər, valideynlər, eləcə də digər qonaqlar iştirak ediblər.

Andiçmə mərasimlərində əvvəlcə hərbi orkestrin müşayiəti ilə döyüş bayrağı təntənəli surətdə sıra meydanına gətirilib.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Vətənimizin suverenliyi, ərazi bütövlüyü və torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.



Təntənəli mərasimlərdə çıxış edənlər kursantları və onların valideynlərini əlamətdar gün münasibətilə səmimiqəlbdən təbrik edib, gələcəyin hərbi qulluqçularına Azərbaycan xalqına layiqli övlad, Vətənə, xalqa və Hərbi Anda sadiq olmağı arzulayıb, nizam-intizamla xidmət etməyi tövsiyə ediblər.

Sonra kursantlar təntənəli şəkildə Vətənə sədaqət andı içib, hərbi marşın sədaları altında tribuna önündən keçiblər.

Sonda valideynlər hərbi təhsil müəssisələrində yaradılan təlim-tədris, məişət şəraiti və ərazi ilə tanış olublar.

# "Dəniz Təməl Komando kursu"nun növbəti buraxılışı olub

*Hərbi Dəniz Qüvvələrində (HDQ) "Dəniz Təməl Komando kursu"nun növbəti buraxılışına həsr olunmuş mərasim keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, mərasimdə əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himni ifa olunub.

Çıxış edən Hərbi Dəniz Qüvvələrinin komandanı vitse-admiral Sübhan Bəkirov kursu bitirən hərbi qulluqçuları salamlayaraq Müdafiə Nazirliyi rəhbərliyinin təbriklərini çatdırıb.

Qeyd edilib ki, ordumuzun tərkib hissəsi olan Hərbi Dəniz Qüvvələri də respublikamızın təhlükəsizliyinə yönələn təhdidlərin qarşısının alınması, eləcə də Xəzər dənizinin Azərbaycana məxsus ərazi sularında etibarlı mühafizənin, əlverişli əməliyyat rejiminin saxlanılması və digər tapşırıqların icrası üçün digər qoşun növləri ilə birlikdə fəaliyyətini davamlı olaraq inkişaf etdirir.

"Dəniz Təməl Komando kursu"nun məzunları göstərilən yüksək etimadı xidməti fəaliyyətləri ilə doğruldacaqlarına söz veriblər.

Məzunlara sertifikatlar təqdim olunduqdan sonra kurs birinciləri, eləcə də kursun təşkilində və keçirilməsində fərqlənən təlimatçılardan bir qrupu mükafatlandırılıb.

"Dəniz Təməl Komando kursu"nun buraxılışına həsr olunmuş mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.





## İran nümayəndə heyətinin Hərbi Qənimətlər Parkında olması münasibətlərin müsbətə doğru irəliləməsindən xəbər verir

General-mayor Məhəmməd Əhədinin rəhbərlik etdiyi İran Silahlı Qüvvələrinin nümayəndə heyətinin Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşdükdən sonra Hərbi Qənimətlər Parkında olması iki ölkə arasında münasibətlərin müsbətə doğru irəliləməsindən xəbər verir. Bunu Vətən müharibəsi və ondan sonrakı dövrdə mövcud gərginliklər fonunda Azərbaycan və İran arasında daha sıx əlaqə kimi dəyərləndirmək olar. Ermənistan regionda yeganə güvəndiyi yaxın qonşu dövləti olan İran bu gün Azərbaycan dövlətinin siyasətini və Prezident İlham Əliyevin vaxtından əvvəl hadisələri görərək 3+3 formatını təklif etməsini qəbul etməsinə gətirir. Ancaq çox təəssüflər olsun ki, informasiya savaşı hələ də davam edir.

Bunu "Həmvətənlərə Dəstək" İctimai Birliyinin təsisçisi, ehtiyatda olan polkovnik-leytenant, hərbi-siyasi ekspert Elmar Hüseyn AZƏRTAC-a açıqlamasında söyləyib.

Hərbi-siyasi ekspertin sözlərinə görə, bu dövrdə ermənilər həmin məsələni qiymətləndirmədən sosial şəbəkələrdə təxribatlara əl ataraq İranın guya Azərbaycanın sərhədlərinə qoşun yığması və Ermənistan-Azərbaycan münasibətlərinə müdaxilə etməsi kimi məlumatlar yayırdı. Bunun heç bir əsası yoxdur. İran rəsmilərinin Azərbaycana səfəri, Türkiyə Cümhuriyyətinin xarici işlər naziri Hakan Fidanın İrana səfər etməsini düşmənə qarşı informasiya savaşının təzahürü kimi görmək olar. Əslində, Cənubi Qafqaza yönəldilən bütün problemlərin əsas mərkəzi bu bölgə olsada, onun təsiri İran ilə Rusiyaya qarşı seçilən platsdarmadır. Onun əsas bağlayıcı qüvvəsi Ermənistandır. Baxmayaraq ki, Vətən müharibəsi dövründən sonra İran açıq şəkildə Ermənistanın ərazi bütövlüyünü dəstəkləyib və buna görə də müəyyən təlimlər keçib. Lakin İran anlayır ki, Ermənistan özü də bu ölkə ilə soyuq müharibə aparan ABŞ və digər qüvvələri Cənubi Qafqazda yerləşdirməklə, sonradan İrana doğru fəaliyyət aparılacaq. ABŞ-ın Ermənistanda təlimlər keçirməsi və eyni zamanda da, Ermənistanın Rusiyadakı səfirinə nota verilməsi şimal qonşumuzla İranın ortaq düşüncələrə gəlməsinə səbəb olub. Əslində, İran və Rusiya özü də ABŞ-ın hədəfidir və bunun da sonradan həyata keçirilməsi üçün hədəflərin dəyişdirilməsinə xidmət edəcək. Ümumiyyətlə, Cənubi Qafqazda sabitliyin pozulması ilə nəticələnən addımların Ermənistan tərəfindən dəstəklənməsi qəbuledilməzdir.

# Bu gün təlimdə qazanılan uğur sabahkı qələbəyə zəmin yaradır

(Əvvəli 1-ci səhifədə)



44 günlük Vətən müharibəsində qalib gəlmiş istehkamçılar əldə etdikləri uğurlarla arxayınlaşmadan yenə də təlim keçir, dərs və məşğələlərdə bacarıq və səriştələrini artırırlar. Budur, istehkamçıların növbəti təlim-məşqlərini maraqla izləyirik. İlkin təəssürat olaraq deyək ki, gördüklərimiz bizi çox sevindirir. Çünki hərbi qulluqçularımız hər addımda qarşıya qoyulan tapşırıq və vəzifələri yüksək peşəkarlıqla və əzmkarlıqla yerinə yetirirlər. İnanırıq ki, bu peşəkarlıq və əzmkarlıq həmişə onlara uğurlar qazandıracaq.

Baş leytenant Boris Qorçiyev məşğələnin mövzusunu şəxsi heyətə ətraflı izah edir, verilən tapşırıqları yerinə yetirərkən tələb olunan zəruri hərəkətləri təlim iştirakçılarına əhatəli aşılayır. Təcrübəli zabit məşğələnin mövzusunu ətraflı izah etdikdən sonra, əsgərlərdən birini sıranın qarşısına çağırır və ona bir az əvvəl göstərdiyi hərəkətləri təkrarlamaq tapşırığı verir. Əyani vəsaitlərdən səmərəli istifadə edən əsgər komandirin



bir az əvvəl verdiyi tapşırığı bacarıqla yerinə yetirir. Məşğələdə iştirak edən əsgərlər növbə ilə irəli çıxaraq məşğələ zamanı mənimsədikləri vərdişləri təkrar-təkrar zabitə göstərirlər. Məşğələ davam etdikcə şəxsi heyətin necə bacarıqlı və səriştəli olduğunu görürük. Əsgərlər yeni vərdişləri mənimsədikcə məşğələdə daha da həvəslə iştirak edirlər.

Çox keçmədi ki, məşğələdə fasilə elan olundu. Bundan istifadə edib istehkamçılarla görüşüb söhbət etdik, onlarla yaxından tanış olduq. Baş leytenant Boris Qorçiyev söhbət zamanı dedi ki, əsgərlərimizin hazırlığı, peşəkarlığı yüksək səviyyədədir. Buna görə də hərbi hissənin şəxsi heyəti Vətən müharibəsində qarşıya qoyulan bütün döyüş tapşırıqlarının öhdəsindən bacarıqla gəldi, böyük igidlik göstərdi. Qoşunlarımızın təhlükəsiz şəkildə irəliləməsi üçün strateji nöqtələrdən keçidlər açıldı. Döyüşçülərimiz bu təhlükəsiz keçidlərdən irəliləyərək işğalçıların üzərinə hücum etdilər, bir-birindən böyük qələbələr qazandılar. Torpaqlarımızın azadlığı naminə hamımız erməni işğalçılarına qarşı cəsarət və hünərlə vuruşduq. İkinci Qarabağ müharibəsində hamımız üzərimizə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldik. Buna görə də biz Vətən müharibəsində 28 ildən çox yurdumuzu işğalda saxlayan düşmənə sarsıdıcı zərbələr vuraraq, torpaqlarımızı azad etdik. Qələbələrimizin davamlı olması üçün, komandanlığın təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq dərs və məşğələlər keçir, şəxsi heyətin bilik və təcrübəsini daha da artırırıq. Əsgərlərimiz təlimlərdə fəal iştirak edərək, zəruri vərdişləri dərindən mənimsəyirlər. Bugünkü məşğələnin mövzusu "Tank əleyhinə minanın torpaq səthinə qurulması"dır. Bir qayda olaraq, biz məşğələlərin mövzularını əsgərlərimizə əhatəli şəkildə izah edirik. Onların vərdiş və bilikləri dərindən mənimsəmələri üçün məşğələlərin gedişində əyani vəsaitlərdən də bacarıqla istifadə olunur. Məşğələlər döyüş şəraitinə uyğun olaraq keçirildiyindən şəxsi heyət daha məsuliyyətlə iştirak edir. Məqsədimiz odur ki, əsgərlərimizin bilik və bacarıqlarını daim yüksək səviyyədə saxlayaq. Qoy onlar tapşırıqların öhdəsindən bacarıqla gəlsinlər. Həmişə xalqımızı xidmətdə qazandıqları uğurlarla sevindirsinlər.

- Hərbi hissəmizin şəxsi heyəti Vətən müharibəsində böyük igidlik göstərdi. Zabit və əsgərlərimizin erməni qəsbkarları üzərində qələbə qazanmasından qürur duyuruq, - deyə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elşən Qasımov söhbətimizə qoşuldu. - Mən də Vətənin bir əsgəri kimi döyüşlər zamanı üzərimə düşən tapşırıqların öhdəsindən uğurla gəldim. Yaxşı bilirik ki, qələbələrin qazanılmasında döyüş hazırlığının yüksək olması vacib şərtdir. Ona görə də dərs və məşğələlərdə fəal iştirak edərək biliklərimizi daim təkmilləşdiririk. Çalışırıq ki, sələflərimizin qələbə dolu döyüş yollarını yeni-yeni uğurlarımızla davam etdirək.

Məşğələdə fəal iştirak edən hərbi qulluqçulardan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Sarı Mirzəyev, əsgərlər Tayfun Zərgərov, Rövşən Qurbanov və başqaları ilə də söhbət etdik. Bir daha əmin olduq ki, təlimlərdə mənimsədikləri bilik və döyüş vərdişləri gələcək xidmətlərində onlara böyük uğurlaq qazandıracaq.

Şəxsi heyətin məşğələsini yaxından izləyən baş leytenant Fərahim Baratoğlu bizimlə söhbətində dedi ki, hərbi qulluqçularımızın təkcə döyüş hazırlı-



ğı deyil, mənəvi-psixoloji hazırlığı da yüksək səviyyədədir. Çünki müntəzəm olaraq ideoloji dərslər keçirilir, mövzular geniş şəkildə onlara izah olunur. Ona görə də həm döyüş hazırlığı, həm də mənəvi-psixoloji hazırlığı yüksək olan əsgərlərimiz üzərlərinə düşən bütün vəzifələrin öhdəsindən bacarıqla gəlirlər. Tapşırıqları peşəkarlıq və əzmkarlıqla yerinə yetirirlər. Həmişə xidmətlərində uğur qazanırlar.

Qısa tanışlıq və söhbətdən sonra istehkamçılar məşğələlərini davam etdirdilər. Təbiidir ki, yüksək hazırlıqlı zabit və əsgərləri qarşıda yeni-yeni qələbələr gözləyir. Əminliklə deyə bilərik ki, biz həmişə onlardan xoş soraqlar alacağıq.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

# Qeyri-qanuni erməni silahlı dəstələri təxribat məqsədilə heyvanlardan istifadə edir

Sentyabrın 11-i saat 08:30 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri ordumuzun Xocavənd rayonu istiqamətində döyüş növbətçiliyi aparan hərbi qulluqçularımıza qarşı itdən sui-qəsdçi kimi istifadə etməklə terror aktı törətməyə cəhd göstəriblər.

Belə ki, qeyri-qanuni erməni silahlı dəstələri itin üzərinə uzaqdan idarə olunan əldəqayırma (improvizə edilmiş) partlayıcı qurğu bağlayaraq mövqelərimiz istiqamətində hərəkət etməyə məcbur ediblər.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi qulluqçularımızın sayıqlığı nəticəsində er-



məni silahlılarının terror-təxribat əməlinin miqyasını böyütmək və şəxsi heyətə daha çox xəsarət yetirmək məqsədilə mövqelərimizə daxil olan itin üzərindəki əldə düzəlmə partlayıcı qurğunu işə salmaq cəhdinin qarşısı alınıb.

Bu təxribatı adi silahların müəyyən növlərinin istifadəsinə qadağa və məhdudiyyətlərə dair Konvensiyanın Minaların, mina-tələlərinin və digər qurğuların tətbiqinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında protokoluna zidd olan əməl kimi qətiyyətlə pisləyirik.

Heyvanlardan sui-qəsd məqsədilə istifadə olunması mənəviyyatsız hərəkətdir və bunu terror aktı kimi qiymətləndiririk.

# Xəbərlər: hadisələr, faktlar

## Polşa Amerikanın tank əleyhinə portativ “Javelin” raket sistemini (TPRS) istehsal edəcək



Polşa Silah Qrupu (PGZ) müəssisələri Amerikanın tank əleyhinə FGM-148F "Javelin" raket sistemini istehsal edəcək. Sentyabrın 6-da Keltsdə keçirilən müdafiə sərgisində "Raytheon" və "Lockheed Martin" şirkətləri ilə əməkdaşlıq haqqında saziş imzalanıb.

Polşa Silah Qrupunun sədri Sebastyan Xvalek bildirib ki, sövdələşmə sayəsində Polşa sənayesi daha bir raket istehsalı təcrübəsi və xarici bazarlara çıxış əldə edir: "Bu, ABŞ xaricində ilk zavod, ilk istehsal xətti olacaq. Yeni raket sisteminin istehsalı bizim amerikalılar üçün nə dərəcədə vacib tərəfdaş olduğunu və beynəlxalq əməkdaşlıq məsələlərində bizə necə qiymət verildiyini göstərir. İstehsalımız təkcə Polşa deyil, həm də Amerika ordusunu çox sayda raketlə təchiz etməyə imkan verəcək".

Saziş, həmçinin Varşava yaxınlığındakı Zelenkada "Mesko" və "Wojskowy Zaklady Elektroniczne" (Hərbi elektronika zavodu) zavodları da daxil olmaqla, "Javelin" TPRS-nin gələcək istehsalında bir neçə polyak müəssisəsinin iştirakını nəzərdə tutur.

Qeyd edək ki, "FGM-148F Javelin" tank əleyhinə raket sistemi Ukraynadakı tammiqyaslı müharibə zamanı zirehli texnika ilə mübarizədə özünü effektli silah kimi göstərib. Bundan təkcə zirehli texnikaya deyil, həm də düşmənin aşağıda uçan hədəflərinə zərbələr endirilib.

## ABŞ, Moldova və Rumıniya birgə hərbi təlimlərə başlayıb



Bazar günü Moldovada ABŞ və Rumıniya hərbçilərinin iştirakı ilə "Scutul de Foc-Rapid Trident-2023" hərbi təlimləri başlayıb.

Bu barədə Moldovanın Müdafiə Nazirliyi məlumat yayıb.

"Sentyabrın 22-dək davam edəcək təlim piyada və artilleriya atışlarını əhatə edir və iştirakçı ordular arasında imkanların inkişaf etdirilməsi və qarşılıqlı fəaliyyət səviyyəsinin artırılması məqsədi daşıyır", - deyə məlumatda bildirilir.

Qeyd olunub ki, təlimlərdə üç ölkənin 500-ə yaxın hərbçisi iştirak edir. Təlimlərə ordunun texniki heyəti, piyadaları və artilleriya sistemləri cəlb olunacaq.

## ABŞ Ukraynaya 190 ədəd minaya davamlı zirehli maşın verəcək



ABŞ Ukraynaya 190 ədəd minaya davamlı zirehli maşın (MRAP) təhvil verəcək.

Bu barədə ABŞ-ın Kiyevdəki səfiri Bridcet Brink sosiala hesabında paylaşım edib.

"Birləşmiş Ştatlar Ukraynaya cəsur hüquqmühafizə orqanları tərəfindən mülki insanları, xüsusən də cəbhə xəttinə yaxın insanları qorumaq üçün 190 MRAP verəcək", - deyə diplomat yazıb.

Bundan əvvəl ABŞ Ukraynaya tükənmiş uran mərmiləri də daxil olmaqla,175 milyon dollarlıq yeni yardım paketini açıqlamışdı.

## “Rheinmetall” konserni Ukraynaya mobil səhra hospitalı göndərib



Almaniyanın "Rheinmetall" müdafiə konserni Kiyevə 32 çarpayılıq mobil səhra hospitalı göndərib.

Bu barədə məlumat kompaniyanın saytında yerləşdirilib.

Almaniya Müdafiə Nazirliyi Ukraynada hospitalın qurulması və müvafiq dəstək üçün "Rheinmetall" konserni ilə müqaviləni bir il öncə, 2022-ci ilin sentyabrında imzalamışdı. Sifarişin dəyəri təxminən 9 milyon avrodur. Həmçinin kompaniya 2023-cü ilin sonunda və 2024-cü ilin əvvəlində Kiyevə iki ədəd mobil tibbi təminat obyekti tədarük edəcək.

Qeyd edək ki, Almaniya Ukraynaya silah tədarükündə ABŞ-dan sonra ikinci yeri tutur.

**AZƏRTAC-ın materialları əsasında**

## *Nümunəvi xidmət*

# "Tarixi döyüşlərin iştirakçısı olmaq məni də qürurlandırır"

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ordu quruculuğuna göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində Azərbaycan Ordusu ildən-ilə müasir silahlarla təmin olunur, bölmələrin arsenalı ən yeni döyüş texnikaları ilə zənginləşdirilir. Alınan hər bir silah və texnika təyinatı üzrə qoşunlar tərəfindən Aprel döyüşlərində, Günnüt zəfərində, Tovuz döyüşlərində Vətən müharibəsində ümumilikdə düşmənin istənilən təxribatının qarşısının alınmasında uğurla istifadə olunub. Danılmaz faktdır ki, döyüş əməliyyatlarının idarə olunmasında mühüm vəzifələrdən biri də rabitəçilərin üzərinə düşür.*



Hazırda rabitə və AİS sahəsində böyük texnoloji yeniliklərə imza atılıb, rabitə bölmələri müasir tələblərə cavab verən yeni texniki vasitələrlə təchiz olunub. Döyüş zamanı qoşunlar arasındakı rabitə əlaqəsinin yüksək səviyyədə təşkili 44 günlük Vətən müharibəsində öz təsdiqini tapdı. Müharibə zamanı müasir avadanlıqlarla təchiz olunan rabitə bölmələrimizin təcrübəli hərbi qulluqçuları üzərlərinə düşən vəzifənin öhdəsindən layiqincə gəlməyi bacardılar. Belə ki, düşmənin hər bir məkrli niyyətinin qarşısı şəxsi heyətimiz tərəfindən qabaqcadan görülən önləyici tədbirlər nəticəsində alındı.

"N" hərbi hissəsində olarkən rabitəçi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Məhəmməd İsayev ilə tanış olduq. Cəlilabad rayonunda doğulub boya-başa çatan Məhəmməd uzun illərdir hərbi formanı şərəflə daşıyır. O da Vətən müharibəsinin iştirakçılarındandır.

"Rabitəçi olmaq nəzəri və praktiki biliklər tələb edir", - deyən Məhəmməd söhbətə başladı. "Dövlətimizin ordumuza olan ali diqqətinin nəticəsidir ki, bölməmizin güclü maddi-texniki təminatı, müxtəlif növ avtomatlaşdırılmış rabitə vasitələri var. Əlbəttə, hər bir müasir silah və texnikanı istifadə etmək üçün bilikli, bacarıqlı və təcrübəli olmaq lazımdır. Rabitə avadanlıqlarından istifadə qaydasını bilməklə yanaşı, yarana biləcək problemləri də vaxtında aradan qaldıra bilməlisən ki, xidmətdə fasilələr yaranmasın. Peşəkar rabitəçi olmaq texniki elmlərdən məlumatlı olmağı tələb edir. Üzərimizə düşən əsas vəzifələrdən biri bölmələri dəqiq və etibarlı məlumatlarla, eyni zamanda, fasiləsiz əlaqə ilə təmin etməkdir. Bir sözlə, rabitə xidməti göründüyündən daha çətin və məsuliyyətlidir".

Çavuş Məhəmməd İsayev, həmçinin qeyd etdi ki, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsi zamanı bölməmiz qarşıya qoyulan tapşırıqların öhdəsindən uğurla gəlməyi bacarıb. "Hərbi rabitəçilərimiz əməliyyatların aparıldığı yerdə təyinat üzrə hərbi hissəmizin aidiyyəti bölmələrinin yüksək döyüş fəallığını təmin etmək məqsədilə üzərlərinə düşən vəzifəni tam yerinə yetirdilər. Bölmələr arasında dayanıqlı rabitə əlaqəsinin olması igid oğullarımızın tarixi torpaqlarımıza doğru irəliləməsini asanlaşdırdı. Onların şücaəti nəticəsində 44 gün davam edən Vətən müharibəsi Azərbaycan Ordusunun şanlı Zəfəri ilə yekunlaşdı. Tariximizə qızıl hərflərlə yazılan şanlı qələbənin, torpaqlarımızın azadlığı uğrunda aparılan bu tarixi döyüşlərin iştirakçısı olmaq məni də qürurlandırır".

Söhbət zamanı öyrəndim ki, Məhəmməd İsayev də Azərbaycan Respublikasının Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**Baş leytenant**
**Oruc MUSTAFAYEV**
**"Azərbaycan Ordusu"**

## *Əsgər dostluğu*

# Hərbi xidmət möhkəm dostluqların başlanğıcıdır

*Bu dəfə yolumuz "N" hərbi hissəsinədir. Sübh tezdən mənzilə doğru yol alırıq. Yolumuz isə o qədər də uzun deyil. Qısa vaxt ərzində hərbi hissəyə çatırıq. İlk dəqiqələrdən ətrafı izləyib müşahidə aparırıq. Burada hər bir əsgərin simasında qürur, fərəh hisslərinin çiçək açdığını gördükdə sevincimizin də qədəri artır.*



Bir-bir onlara yaxınlaşıb fikirlərini öyrənib, hər ağızdan fərqli cümlələr, fərqli sözlər eşitdik. Simalarında duyduğumuz fərəh hissindən özləri də danışaraq bizlərə fikirlərimizdə yanılmadığımızı təsdiqlədilər.

Kənarda dayanan iki əsgər diqqətimizi çəkdi. Onlar bir-birləri ilə danışıb gülümsünürdülər. Bir qədər də onları izlədikdən sonra əsgərlərə yaxınlaşıb söhbətləşdik. Bildirdilər ki, hərbi xidmətdə möhkəm dostluq münasibəti qura biliblər.

Əsgər Novruz Hümbətli əslən Kəlbəcər rayonundan olsa da, bir vaxtlar torpaqları işğal altında olduğundan ailəsi ilə birlikdə Oğuz rayonunda məskunlaşıb, orada böyüyüb boya-başa çatıb. Xidmətinin son aylarında olduğunu deyən əsgər Novruz Hümbətli buraya çox alışdığını və dostlarından ayrı qalacağı üçün kədərləndiyini bildirdi.

Dostu əsgər Ural Həsənov isə Tərtər rayonundan hərbi xidmətə çağırılıb. Dostluqlarının hərbi xidmətdə möhkəmləndiyini deyən gənclər əsgər dostluğundan danışdılar.

Novruz bildirdi ki, Ural hərbi xidmətə yeni gəldikdə buradakı mühitə alışmaq onun üçün bir az çətin idi. Buna görə də əlimdən gələn köməkliyi etdim.

"Yeni mühitə uyğunlaşmaq insandan olduqca böyük güc və iradə tələb edir. Buraya gəlməzdən qabaq hərbi xidmətin özünəməxsus çətinlikləri haqqında çox eşitmişdim. Xidmətə başlayana qədər bu deyilənləri o qədər də anlaya bilmirdim. Buradakı qaydalara, yeni şəraitə alışmaq bir az vaxt aldığından məlumatlı biriylə ünsiyyət qurub onun təcrübələrindən bəhrələnmək yeni mühitə rahat uyğunlaşmağa kömək edir. Novruz da əlindən gələn köməyi əsirgəmədi. İndi isə asudə vaxtlarımızda onunla müxtəlif mövzularda söhbətlər edir, kitablar oxuyaraq mövzu ətrafında diskussiyalar aparırıq. Bizim sevimli oyunlarımızdan biri də şahmatdır. Düşünürük ki, ordumuzun şəxsi heyəti nə qədər güclü olsa da, onlar intellektual baxımından da fərqlənməyi bacarmalıdırlar.

Hərbi xidmət Novruzla mənim dostluğumun başlanğıcı oldu. Burada onun kimi dost tapdığım üçün özümü xoşbəxt hiss edirəm. Əminəm ki, dostluğumuz xidmətimizdən sonra da davamlı olacaq..." - deyə əsgər Ural Həsənov bildirdi.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**
**foto C.CƏFƏROVUNDUR**

# İdman

## Londonda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən idman yarışı keçirilib



Londonda kikboksinq üzrə üçqat dünya çempionu Hafiz Baxşəliyev tərəfindən Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilən "Immortal Champions" adlı yarış keçirilib.

Muay tay, kikboksinq və MMA döyüş növlərinin yer aldığı yarışda Böyük Britaniya və dünyanın bir çox ölkələrindən iştirakçılar mübarizə aparıb.

Yarışın əsas döyüşlərinin birində Yusuf Ali Taleb Co Bellonu ikinci raundda nokaut edərək, "Immortal Champions - MMA Britaniya" titulunu qazanıb.

Yarışın əsas döyüşü isə britaniyalı Körtis Allen və ispaniyalı Kennet Alarkon arasında baş tutub. Körtis Allen dördüncü raundda rəqibini nokauta salaraq "Immortal Champions - muay tay" Avropa çempionu olub.

## Azərbaycan akrobatları beynəlxalq turnirdə qızıl medal qazanıblar



Akrobatika gimnastikası üzrə Azərbaycan milli komandası Polşanın paytaxtı Varşavada keçirilən "Wars and Sawa Cup" beynəlxalq turnirində qızıl medal qazanıb.

Ağasif Rəhimov və Raziyə Seyidli (qarışıq cütlük), Nəzrin Zeyniyeva, Zəhra Rəşidova, Anahita Bashiri (yeniyetmələrdən ibarət qadın qrupu), Daniel Abbasov və Murad Rəfiyev (kişi cütlüyü) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

## AFFA Ermənistan-Xorvatiya oyunundakı təxribatla bağlı UEFA-ya müraciət edəcək

AFFA "AVRO 2024"-ün seçmə mərhələsində Ermənistan və Xorvatiya yığmaları arasında keçirilmiş oyundakı təxribatla bağlı UEFA-ya müraciət edəcək.

Bu barədə milli assosiasiyanın mətbuat xidmətinin rəhbəri Elnur Məmmədli məlumat verib.

Onun sözlərinə görə, AFFA məsələ ilə bağlı bütün lazımi addımları atacaq: "Ermənilər ilk dəfə deyil ki, bu cür təxribata əl atırlar. Bununla bağlı bütün mümkün tədbirlər görüləcək".

Qeyd edək ki, İrəvanda baş tutan Ermənistan-Xorvatiya matçında ermənilər meydanın üzərində dron vasitəsilə Qarabağdakı separatçı rejimin "bayrağı"nı nümayiş etdiriblər. Həmçinin erməni və xorvat azarkeşlər arasında kütləvi dava olub.

Görüş qonaqların 1:0 hesablı qələbəsi ilə başa çatıb.

## Neymar əfsanəvi futbolçu Pelenin rekordunu yeniləyib



Braziliya millisinin və Səudiyyə Ərəbistanının "Əl-Hilal" komandasının hücumçusu Neymar yığmadakı qol sayına görə əfsanəvi futbolçu Pelenin rekordunu yeniləyib. 31 yaşlı forvard buna DÇ-2026-nın seçmə mərhələsinin Boliviya ilə oyununda (5:1) dubl etməklə nail olub.

Braziliya seçməsinin heyətində meydana çıxdığı 125-ci matçda qollarının sayını 79-a çatdıran Neymar bu göstərici ilə Peleni (77 qol) geridə qoyub. O, əfsanəvi futbolçunun rekordunu yeniləməsi ilə bağlı bunları deyib: "Bunu edə biləcəyimi ağlıma da gətirmirdim. Pele və ya digər milli üzvlərindən daha yaxşı olduğumu hesab etmirəm".

Qeyd edək ki, Pele 2022-ci il dekabrın 29-da vəfat edib.

**AZƏRTAC-ın materialları əsasında**

Bayramov Zahir İbrahim oğluna məxsus M/ V № 017529 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Elvin VƏTƏNDUST | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 522 Nüsxə 4760 |